# Səsin əbədiyaşarlıq zirvəsi

**Düz 12 ildir ki, o, aramızda yoxdur. Amma səsi, xatirəsi yaşayır. Çünki o, nadir tembrli, geniş diapazonlu, güclü və məlahətli səsi ilə seçilən sənətkar, opera səhnəmizin ilk qadın ifaçılarından biri idi. “Koroğlu” operasında Nigar, “Şah İsmayıl”da Gülzar, “Nərgiz”də Nərgiz, “Sevil”də Sevil rollarının mahir ifaçısı olsa da, Firəngiz Əhmədova adını sənətə yazaraq könüllərdə taxt-tac qurmuşdu.**



...Uşaq idik və evimiz üçün televizor yenicə alınmışdı. “Möcüzəli qutu”da onun – SSRİ Xalq artisti Firəngiz Əhmədovanın ifaları səslənəndə (özü də bu, həftədə 1-2 dəfə olurdu) hamı qulaq kəsilərdi. Mən vokal musiqisini anlamadığım üçün bir dəfə “O, niyə qışqırır?”, – deyə soruşdum. Anam cavab verdi ki, qışqırmır, ay bala, səsini ləpələndirir, dalğa-dalğa qaldırıb-endirir. Yenə başa düşməsəm də, daha heç nə demədim. Amma sonralar anlayışlarım genişləndikcə anamın onun ifalarını necə obrazlı dəyərləndirdiyini dərk elədim və şaqraq səsinin sehrinə düşdüm.

Onun ifasında Üzeyir Hacıbəylinin “Sənsiz”, Asəf Zeynallının “Ölkəm”, Niyazinin “Arzu”, Əşrəf Abbasovun “Heyran olmuşam”, Ağabacı Rzayevanın “Oxu, gözəl“ romansları bir ayrı lətafət qazanırdı. Çünki opera müğənnisi olsa da, səsində kökdən gələn bir lirizm vardı. Amma çoxları bilmir ki, konservatoriyanın 1-ci kursunda oxuyanda Firəngiz Əhmədova muğam dərsindən “2” alıb. Bu barədə öz xatirələrində söz açıb: “İlk semestrdə bu fəndən “2” almışdım. Göndərişlə yenidən imtahana gələndə mərhum pedaqoq Soltan Hacıbəyli Nigarın ariyasını çalıb məndən soruşdu ki, bu musiqi hansı muğam üstündə bəstələnib? Cavab verdim ki, “Segah“ muğamı üstündə. Və imtahandan “5” aldım. Bundan sonra mən anladım ki, Azərbaycan opera müğənnisi milli lirizmləri unutmamalıdır”.

Nə gizlədim, mən Firəngiz Əhmədovanın nə canlı konsertlərini, nə də operalarda çıxışlarını izləmişəm. Yalnız 2011-ci ilin soyuq bir dekabr günündə ondan ötrü öz evi hesab etdiyi Opera və Balet Teatrına getmişəm, onda da son dəfə səhnəyə çıxıb. Çünki dünyasını dəyişmişdi və orada vida mərasimi keçirilirdi.

Həmin hüznlü gündə ilk çıxış edən Xalq yazıçısı Elçin Əfəndiyev onu Azərbaycan mədəniyyətinin ən görkəmli simalarından biri saydığını söylədi.

**Vərəqləri saralmış qeyd dəftərçəmdən qısa sətirlər:**

**Elçin Əfəndiyev:** “Firəngiz xanım operalarla bərabər, kamera əsərlərinin və romansların bənzərsiz ifaçısı olaraq da tanınıb. O, Azərbaycan mədəniyyətinin böyük bir epoxasının son magikanlarından biri idi”.

**Arif Məlikov:** “Firəngiz xanım özündən sonra iz qoyan bir sənətkar olduğundan millətin yaddaşında daim yaşayacaq”.

**Fidan Qasımova:** “Çox gözəl, lirik, romantik sopranoya malik Firəngiz Əhmədova opera üçün ən çətin sayılan qadın obrazlarını oynayıb”.

**Canəli Əkbərov:** “Firəngiz Əhmədovanın səsində xüsusi parlaqlıq var idi. O, öz səs möhürü ilə çox söz deyə bildi”.

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalının keçirildiyi bu günlərdə Firəngiz Əhmədovanın 95 yaşı tamam olur. Onun haqqında sanballı vikipedik məlumat var. Təkcə bir faktı xatırlatmaq istəyirik ki, Azərbaycan musiqisinin şöhrətini dünyaya yaymış Firəngiz Əhmədova 1998-ci ildə mədəniyyətimizin böyük qayğıkeşi olan Prezident Heydər Əliyevin fərmanı ilə halal şöhrətinin rəsmi təsdiqi olan “Şöhrət” ordeninə layiq görülüb.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti.- 2023.- 24 sentyabr.- S.10.